

## Səyavuş MƏMMƏDZADƏ

Amansız ölüm görkəmli şair-tərcüməçi ni aramızdan apardı.

Səyavuş İmran oğlu Məmmədzadə 1935-ci il oktyabrın 2-də Bakıda müəllim ailəsində anadan olmuş, orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.

Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. "Sınaq" adlı ilk şeiri 1956-cı ildə universitetin çoxtirajlı qəzetində dərc olunmuşdur. Həmin vaxtdan "Molodyoj Azerbaydjana" qəzetində mütərcim, sonralar ədəbi işçi işləmişdir. Onun ədəbi fəaliyyətində poeziya, nəsr, publisistika, bədii tərcümə xüsusi yer tutur. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun bədii tərcümə bölməsini bitirmişdir (1959-1966). Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Literaturnı Azerbaydjan" jurnalında ədəbi işçi, tənqid və publisistika şöbəsinin müdiri (1967-1976), Azərbaycan Yazıçılar Birliyində referent-məsləhətçi, katib köməkçisi, Tərcümə Mərkəzində baş redaktorunun müavini, sonra "Yurd" dər\gisində və "Günay" qəzetində tərcüməçi işləmidir (1977-1995). Təqaüdə çıxmış, fərdi yaradıcılıqla məşğuldur. Azərbaycan klassik və müasir ədəbiyyatından rus dilinə, eləcə də rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə etdiyi tərcümələri dövri mətbuatda çap etdirmişdir. "Əməkdar mədəniyyət işçisi" fəxri adına (1984) və Rusiyanın Azərbaycandakı səfirliyi tərəfindən bir sıra mükafatlara layiq görülmüşdür. "Xəzər balladası" baletinin librettosuna görə Ümumittifaq müsabiqədə 3-cü dərəcəli diplomla mükafatlandırılmışdır (1996).

Bakı şəhəri Səbail rayon İcraiyyə Komitəsi zəhmətkeş deputatları Sovetinin deputatı (1979-1981) olmuş, klassik macar şairi Endre Adinin anadan olmasının 100 illiyi yubileyində iştirak edən Sovet nümayəndə heyətinin tərkibində Macarıstana getmişdir (1977).

S.Məmmədzadə 2003-cü ildə Əməkdar İncəsənət Xadimi adına layiq görülmüşdü. 2008-ci ildən Prezident təqaüdçüsü idi.

Görkəmli şair-tərcüməçi, səmimi insan, unikal xarakterə malik ziyalı olan Səyavuş Məmmədzadənin xatirəsi onu tanıynaların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 sentyabr.- S. 11.**